# Laçına dönüş davam edir






**Şanlı Zəfərimizdən sonra Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən məqsədyönlü və genişmiqyaslı layihələr işğaldan azad edilmiş torpaqlarımızın sürətlə dirçəlməsinə, əhalinin təhlükəsiz məskunlaşmasına və davamlı iqtisadi aktivliyinin təmin olunmasına xidmət edir. Bütün bunlar Prezident İlham Əliyevin qətiyyəti və düzgün strategiyası sayəsində sürətlə reallaşır.**

2022-2026-cı illəri əhatə edən "Böyük Qayıdış" Dövlət Proqramının əsas hədəfi ilk beşillikdə 34 min 500 ailəni azad edilmiş ərazilərə köçürməkdir. Bu istiqamətdə məqsədyönlü tədbirlər həyata keçirilir. İşğaldan azad edilmiş ərazilərimizdə yeni infrastrukturun qurulması, evlərin və binaların tikilməsi, o cümlədən yolların və digər kommunikasiya sistemlərinin yaradılması istiqamətində aparılan işlər onu deməyə əsas verir ki, üç onillik məcburi köçkün həyatı yaşamış vətəndaşlarımızın hamısı tezliklə yurdlarına qovuşacaqlar.

Keçmiş məcburi köçkünlər mərhələli olaraq əzəli torpaqlarına dönürlər. İşğaldan azad edilmiş ərazilərimizə qayıdan ailələrin sayı gündən-günə artır. Bu günədək 1548 ailə - 6070 nəfər olmaqla, 175 ailə (871 nəfər) Zəngilan rayonunun Ağalı kəndinə, 20 ailə (90 nəfər) Tərtər rayonunun Talış kəndinə, 472 ailə (1773 nəfər) Laçın şəhərinə, 666 ailə (2517 nəfər) Füzuli şəhərinə, 215 ailə (819 nəfər) Laçın rayonunun Zabux kəndinə qayıdıb.

İşğaldan azad edilmiş digər şəhər və kəndlərimizlə yanaşı, Laçına da mütəmadi olaraq köçlər təşkil olunur. Bu köç karvanları həyatın ən ağır üzünü görmüş insanları yurdlarına qovuşdurur. Laçın şəhərinə ilk köç ötən il mayın 28-də, Zabux kəndinə isə avqustun 25-də baş tutmuşdu. İllər öncə doğma torpaqlarından didərgin düşən laçınlılar el-obalarına qovuşaraq yeni həyata başlayıblar. Dünən Laçın şəhərinə daha 21 ailə (68 nəfər), Laçın rayonunun Zabux kəndinə isə 4 ailə (11 nəfər) köçürülüb.

Doğma yurda qovuşan keçmiş məcburi köçkünlər hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya, həmçinin torpaqlarımızı işğaldan qurtaran rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını bildiriblər. Onlar həmçinin bu yolda canlarından keçən şəhidlərimizə rəhmət, ailələrinə səbir diləyiblər.

Köçürülən ailələrin Laçın şəhərində vaxtilə yaşadıqları, işğala son qoyulduqdan sonra dövlət başçısının göstərişi əsasında bərpa edilən və ya yenidən tikilən evlərdə məskunlaşması üçün bütün şərait yaradılıb. Burada həmçinin vətəndaşların rifahının yüksəldilməsi və işlə təminatı istiqamətində mühüm tədbirlər görülüb, rahat və firavan həyat şəraiti üçün lazım olan infrastruktur yaradılıb və proses davam edir. Planlaşdırmada tətbiq edilmiş "15 dəqiqəlik şəhər" prinsipi isə yaşayış məhəllələrinin, gündəlik tələbat obyektlərinin yaxın məsafədə olmasını və aşağı sürətli yol infrastrukturunun təşkilini nəzərdə tutaraq sakinlərin və qonaqların şəhər daxilində rahat hərəkəti təmin edilib.

Ötən il olduğu kimi, bu il də azadlığına qovuşmuş torpaqlarımızda quruculuq işləri yüksək səviyyədə həyata keçiriləcək, daha çox keçmiş məcburi köçkünlər yurdlarına dönəcək, xalqımız bundan sonra da neçə-neçə qayıdış karvanının şahidi olacaq.

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***

Azərbaycan.- 2024.-31 mart, № 66.- S.15.